# RƏSMİ STATİSTİKANIN ƏSAS PRİNSİPLƏRİ

*İqtisadi və Sosial Şura*

Baş Assambleyanın və İqtisadi və Sosial Şuranın qlobal və milli inkişaf məsələləri sahəsində rəsmi statistikanın fundamental əhəmiyyətinin qeyd olunduğu son qətnamələrinə[1] *istinad edərək*,

davamlı inkişaf, sülh və təhlükəsizliyin, həmçinin aşkarlıq və şəffaflıq tələb edən, dünyada artan qarşılıqlı asılılıq şəraitində dövlətlər və xalqlar arasında qarşılıqlı anlaşma və ticarətin təmin edilməsinin dəstəklənməsi üçün prinsipial xarakterli əsaslandırılmış qərarların təhlili və qəbul edilməsi məqsədilə, keyfiyyətli rəsmi statistik məlumatların son dərəcədə vacib əhəmiyyətini *nəzərə alaraq,*

həmçinin, rəsmi statistika sistemlərinə və statistik məlumatlara inamın daha çox özünü dərk etməyə və öz üzvlərinin hüquqlarına hörmət etməyə səy göstərən istənilən cəmiyyətin əsasını təşkil edən əsas dəyər və prinsiplərə olan münasibətdən asılı olduğunu və bu kontekstdə statistika orqanlarının peşəkar müstəqillik və hesabatlılığının son dərəcədə mühüm rol oynadığını *nəzərə alaraq,*

statistika fəaliyyətinin əsasını təşkil edən əsas dəyər və prinsiplərin səmərəliliyinin təmin olunması üçün bütün siyasi səviyyələrdə və milli statistika sistemlərinin bütün maraqlı iştirakçıları tərəfindən hüquqi və institusional mexanizmlərlərlə zəmanət verilməli olduğunu *qeyd edərək*,

1994-cü ildə[2] Statistika Komissiyası tərəfindən qəbul edilmiş, 2013-cü ildə yenidən təsdiq olunmuş və Baş Assambleyaya təsdiq olunması tövsiyə edilmiş Rəsmi Statistikanın əsas prinsiplərini qəbul edilməsini *təsdiq edir*:

## Rəsmi statistikanın əsas prinsipləri

**1-ci prinsip:** Rəsmi statistika özündə iqtisadi, demoqrafik, sosial və ekoloji vəziyyət haqqında məlumatlarla idarəetmə orqanlarına, iqtisadi subyektlərə və ictimaiyyətə təqdim olunan məlumatların, demokratik cəmiyyətin informasiya sisteminin əvəz olunmaz elementini əks etdirir. Bu məqsədlə, praktiki dəyərə malik olan rəsmi statistika məlumatları, vətəndaşların ictimai məlumatlara olan hüquqlarına hörməti təmin etmək üçün ədalətlilik əsasında rəsmi statistika orqanları tərəfindən yığılmalı və yayılmalıdır.

---

[1] Onların siyahısına Baş Assambleyanın ümumdünya statistika gününə həsr olunmuş 64/267 nömrəli və İqtisadi və Sosial Şuranın statistik potensialın gücləndirilməsinə dair 2006/6 nömrəli və əhali və mənzil fondunun siyahıyaalınmasına dair ümumdünya proqramına dair 2005/13 nömrəli qərarları daxildir.

[2] 1994-cü ildə ilk dəfə qəbul edilmiş prinsiplərdə istifadə olunan ilkin preambulaya baxmaq üçün Statistika Komissiyasının (E/1994/29) xüsusi sessiyasının işi haqqında hesabatın V bölməsinə nəzər yetirmək olar. Bu həmçinin http://unstats.un.org/unsd/statcom/94report.pdf veb səhifəsində də mövcuddur. Əsas prinsiplər və onların tarixi haqqında daha ətraflı məlumat üçün http://unstats.un.org/unsd/dnss/gp/fundprinciples.aspx veb səhifəsinə baxmaq olar.

**2-ci prinsip:** Rəsmi statistikaya olan inamı saxlamaq məqsədilə, elmi prinsipləri və peşəkarlıq etikası da nəzərə alınmaqla, ciddi şəkildə peşəkarlıq mülahizələrini əldə rəhbər tutmaqla, statistika orqanları statistik məlumatların toplanması, işlənməsi, saxlanması və təqdim edilməsinin metod və qaydaları barədə qərarlar qəbul etməlidirlər.

**3-cü prinsip:** Məlumatların düzgün şərhinə yardım göstərmək üçün statistika orqanları statistik məlumat mənbələri, statistik metod və qaydalara dair informasiyanı elmi standartlara uyğun təqdim etməlidirlər.

**4-cü prinsip:** Statistika orqanları statistik məlumatların səhv izahına və ya yanlış istifadəsinə şərh vermək hüququna malikdirlər.

**5-ci prinsip:** Statistik məqsədlər üçün məlumatlar istər statistik müayinə, istərsə də inzibati kartotekalar kimi bütün növ mənbələrdən alına bilər. Statistika orqanları keyfiyyəti, vaxtlı-vaxtında olmasını, respondentlərə düşən xərcləri və yükü nəzərə almaqla məlumat mənbələrini seçməlidirlər.

**6-cı prinsip:** Statistik məlumatların hazırlanması üçün statistika orqanları tərəfindən toplanan fərdi məlumatlar, fiziki və ya hüquqi şəxslərə aid olmasından asılı olmayaraq, ciddi şəkildə konfidensial xarakter daşımalıdır və yalnız statistik məqsədlər üçün istifadə edilməlidir.

**7-ci prinsip:** Statistika sisteminin fəaliyyətinə aid olan qanunlara, əsasnamələrə və tədbirlərə aşkarlıq verilməlidir.

**8-ci prinsip:** Ölkə daxilində statistika təşkilatları arasında əlaqələndirmə statistika sistemində uyğunluq və səmərəliliyin təmin edilməsi üçün böyük əhəmiyyətə malikdir.

**9-cu prinsip:** Hər bir ölkənin statistika təşkilatları tərəfindən beynəlxalq konsepsiyalardan, təsnifatlardan və metodlardan istifadə edilməsi bütün rəsmi səviyyələrdə statistika sistemlərində uyğunluq və səmərəliliyin təmin edilməsinə imkan yaradır.

**10-cu prinsip:** Statistika sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq bütün ölkələrdə rəsmi statistika sistemlərinin təkmilləşdirilməsinə yardım edir.